**“Televiziya və radio yayımı haqqında” Azərbaycan Respublikasının qanunundan (Çıxarışlar)**

“Televiziya və radio yayımı haqqında” Azərbaycan Respublikasının Qanunu. № 345 - IIQ , 25 iyun 2002-ci il (10.12.2018-ci ilin dəyişiklikləri ilə).

**Maddə 35.** Reklam yayılması

**Maddə 35.10.** Televiziya və radio ilə narkotik vasitələrin, silahların, pornoqrafiya-nın, tütün məmulatlarının, spirtli içkilərin, habelə Azərbaycan Respublikasının qanunvericiliyi ilə reklamı qadağan olunan digər məhsulların, habelə saat 07.00-dan saat 23.00-dək spirtli içkilərin reklamına yol verilmir reklamına yol verilmir.

**Maddə 40.** Yayımçıların hüquq və vəzifələri

**Maddə 40.2** Teleradio yayımçılarının vəzifələri aşağıdakılardır:

**Maddə 40.2.2-1.** tütün məmulatlarını və tütün istifadəsi prosesini nümayiş etdirməmək, həmçinin tütün məmulatlarının və tütün istifadəsi prosesinin nümayiş etdirildiyi əsərləri, tamaşaları, proqramları efirdə, kabel yayımı vasitəsilə açıq yayımlamamaq;

**Maddə 40.3.** “Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq teleradio yayımçıları tütündən istifadənin və sağlamlığa zərər vuran digər vərdişlərin mənfi təsiri barədə müvafiq icra hakimiyyəti orqanlarının, elm müəssisələrinin və qeyri-hökumət təşkilatlarının dəstəyi ilə xəbərdaredici, maarifləndirici və tərbiyəvi mövzuda verilişlər hazırlayır və bu mövzulara ayda 90 dəqiqədən az olmayan efir vaxtı ayırırlar. Bu verilişlərin 45 dəqiqəsi saat 17.30 - 23.00 arasında olmaqla, saat 08.00 - 23.00 arasında yayımlanır və verilişlərin surəti hər ay Milli Televiziya və Radio Şurasına təhvil verilir.